Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 192** QƏRAR **Bakı şəhəri, 11 may 2016-cı il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli 189 nömrəli qərarı ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nda dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli 189 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 7, maddə 884; 2014, N 6, maddə 745; 2015, N 3, maddə 331, N 6, maddə 785; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 mart tarixli 122 nömrəli qərarı) ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 26-cı hissəsinin "Təbii inhisara aid edilən fəaliyyət növləri" sütunundan "və hərəkət təhlükəsizliyi" sözləri çıxarılsın;

2. aşağıdakı məzmunda 26-1-ci hissə əlavə edilsin:

"26-1. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi - dəniz üzgüçülüyünün təhlükəsizliyi".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***